MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXIV buraxılış, Bakı, 2023
МИР КУЛЬТУРЫ
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXIV выпуск, Баку, 2023*
THE WORLD OF CULTURE
*Azerbaijan State University of Culture and Art, XXXXIV edition, Baku, 2023*

**UOT: 78.02**
**DOI: 10.52094/3005-9941.44.2023.071**

**Gülnarə Rafiq qızı MANAFOVA**
AMK-nın "Milli alətlərin bərpası və təkmilləşdirilməsi"
elmi laboratoriyasında baş elmi işçi
ORCID: 0000-0002-3872-1167
Email: gulnarerefiq@gmail.com

# CAVANŞİR QULİYEVİN MUSİQİDƏ MÜƏLLİF MONOQRAMI

***Xülasə**: Məqalə tanınmış Azərbaycan bəstəkarı Cavanşir Quliyevin yaradıcılığında intonasiya təhlili üsulu ilə aşkar edilmiş musiqi imzası, müəllif monoqramının tədqiqinə həsr edilib. Yaranma tarixi erkən dövr yaradıcılığında qeyd olunan musiqi imzası bəstəkarın əksər əsərlərində müşahidə edilərək müəllifin həyat yolu və şəxsiyyətinin transformasiyası fonunda yaranan xüsusiyyətlərlə bərabər araşdırılır. Müəllif monoqramının əsasında duran axsaq, punktir ritm, aşıq musiqisinin dayaqlandığı kvarta və sekunda intervalının dominant rolu, 3 səviyyəli qədim türk dünya modelinə aid təsəvvürlərə müvafiq olaraq yüksələrək ali ideyalara can atan, enərək maddiləşən istiqaməti ilə türkçülüyün müasir musiqidə təzahür formalarını nümayiş edir.*

***Açar sözlər**: Cavanşir Quliyev, musiqi imzası, müəllif monoqramı, intonasiya lüğəti*

Arxada qoyduğumuz XX əsrin, eləcə də müasiri olduğumuz XXI əsrin musiqi mədəniyyətinin icmalını verərkən nəzərə almalıyıq ki, hələ də ötüb keçdiyini iddia edə bilmədiyimiz milenium sürməkdə və bəşəriyyətə bəxş etdiyi yeni estetika, baxış bucağı və müvafiq olaraq yeni üsul və vasitələrini diqtə etməkdədir. Azərbaycan avanqard musiqisinin əhəmiyyətli nümayəndələrindən olan Cavanşir Quliyev məhz bu dövrün bəstəkarı kimi müasirliyin estetikasını da bölüşür. Nəzərə alsaq ki, milli bəstəkarlığın qarşısında xalq musiqi formalarının, şifahi ənənəli professional janrların tətbiqi, milli musiqini Avropa tərzinə yaxınlaşdırmaq prosesinə üstəlik dünya musiqisini baş-ayaq eləmiş yenilikləri qatmaq məsələsi də dururdu, bu zaman Kşiştof Penderetski demiş bu yeni "*fin de siecle*", milli musiqi məktəbləri üçün də "möhtəşəm sintez dövrü"nün miqyasını dərk etmək çətin olmaz. Əsas şərt - ən son üsul və vasitələrlə tanış olmaq, yeniliklərin tətbiqi yollarından agah olmaq, artıq avanqardın klassikləri sayıla biləcək bəstəkarların fikirlərini eşidə bilmək, dünyanın yeni estetikasını milli mövqe ilə uzlaşdırmaq heç də asan məsələlərdən biri deyildi. Əsrin üstündən aşan "Harmoniya-tembr-səs-küy" adlı nəhəng dalğalar imtina estetikası sayəsində dünya bəstəkarlarını ağlasığmaz addımlar atmağa, fərdi konseptual həll yolları axtarmağa vadar edirdisə Azərbaycan bəstəkarının "yaxşı və pis" seçimi arasında azmaq şansı da vardı. Məzmunun forma üzərində tam qələbəsi hələ ki, üfüqdə işarmaqda olan nöqtə kimi görünürdü və hər Azərbaycan bəstəkarı o işığa doğru irəlilə-

yərək öz cığırını tapdayıb bərkitməli idi. Müxtəlif üslub, janr, fərqli yaradıcı baxışların bolluğu ilə seçilən məhz belə dövrlərdə intonasiyanı anlamağa kömək edəcək "lüğət"lərin yaradılması məsələsi aktuallaşır.

Müqəddəs simvolların, totemlərin canlandırılması, musiqi portretləri, obrazların fərdiləşdirilməsi prosesi ilə C.Quliyev əslində bütün ömrü boyu məşğul olub. Qədim obrazların, tarixi qəhrəmanların fərdiləşdirilməsi və özünəməxsus intonasiya ilə təchiz edilməsi işi teatr və kino musiqisindən təkan alır. Türk simvolizmində olduğu kimi sadə strukturlardan istifadə edərək mürəkkəb modellər yaratmaq bacarığı isə bəstəkarın bəlkə də ən özəl keyfiyyətlərindən biridir. Bunu bir növ xırda ornamentlərdən quraşdırılmış xalça rəsmlərinə bənzətmək olar. İntonasiya bəstəkar üçün artıq tərcümə edilmiş hazır fikir düyünçələridir deyə intonasiyadan tutub bəstəkarın və dövrün üslubuna qədər tədqiq etməklə araşdırmaların miqyasını genişləndirmək mümkündür [6]. Əlbəttə, dövrün intonasiya lüğətinin bir parçası olan bəstəkarın şəxsi intonasiya lüğəti milli musiqi lüğətindən kənarda mövcud ola bilməz. Ona görə də dövrün intonasiya lüğətini tərtib etmək kimi qlobal iddiası olan tədqiqatçılar lokal janrlar üzrə, məsələn muğamın, aşıq musiqisinin, xalq yaradıcılığının ayrı-ayrılıqda tərtib edilmiş intonasiya lüğətlərinə və bu istiqamətdə aparılmış tədqiqatlara arxalanaraq müqayisəvi təhlil aparmalı olur.

C.Quliyevin musiqi dilinin intonasiya lüğətini yaratmaq istəyi ilə bir qism mövzunu fərqləndirməyimiz gərəkdir. Əsərlərdəki dramaturji mövqeyi və semantik yükünə nəzərən onları müəllif imzası səviyyəsinə qədər yüksəldə bilərik. İlk dəfə artıq kamil, cilalanmış şəkildə zurna və orkestr üçün Uvertürada (1979) rastlaşmağımızın özü də əlamətdardır. Bəstəkarın sanki bütün mahiyyətini bəyan edə biləcək bu əsərin əsas mövzusunu müəllif imzası kimi bütün yaradıcılığı boyu izləməyə çalışaq. Qısa, lakonik, özündə böyük potensial psixi enerji daşıyan mövzunun əmələ gəlməsi tədricən olmadı. O, sanki ani əmələ gəlib sonra bəstəkarın bütün yaradıcılığını öz xasiyyətinə boyadı. Uvertüradan əvvəlki əsərlərin heç birində buna nə intonasiyaya, nə də ritmik formuluna görə bənzər mövzuya rast gələ bilmərik. Sanki birdən birə peyda olmuş və əvvəlki əsərlərlə nəzərəçarpacaq qədər fərqli olan axsaq ritmikalı[1] mövzu sonrakı dövr əsərlərində müxtəlif şəkildəyişmələrdə və bir qədər fərqli təfsirdə özünü büruzə verir. Xalis kvinta diapazonuna yerləşdirilmiş mövzu sanki ən yüksək (Cis) səsi aşağıdan müxtəlif intervallar (5, 2, 3, 2, 4) vasitəsilə həmlə edir. Ritmik formula axsaqlığı onun punktir ritmi deyil metrik bərabərliyi pozan sonuncu artıq payda əmələ gələn vurğusu verir. Frazanın sanki artıqlıq yaradan sonuncu notu əslində növbəti dəfə variant təkrar üçün təkan yaradır (Nümunə 1).

[1] Axsaq ritm termini Bela Bartok və etnomusiqişünas Konstantin Brailuyun birgə çalışmaları nəticəsində yaranıb. Onlar bolqar ritmlərinə xasiyyətnamə verərkən bütün türk dünyasının musiqisinə aid ediləcək termini ilk dəfə tətbiq ediblər. Daha sonralar termin axsaq ritmdən geniş istifadə edən B.Bartokun yaradıcılığını tədqiq edən musiqişünaslar tərəfindən işlədilib [16].

**Nümunə 1**
**Uvertüranın əsas mövzusu Zurna in H**




Bir neçə il sonra yazılmış II Kvartetdə (1982) peyda olan müəllif imzasında frazanın punktirli birinci yarısının daha vacib olduğu aydın görünür. Bəstəkar punktir ritmli, həmlə xüsusiyyətli ilkin motivi saxlamaqla qalan hissəsini improvizəyə məruz qoyur. İlkin motivin interval tərkibinin (6, 2, 3) dəyişdiyini müşahidə etdiyimiz zaman xasiyyətinin olduğu kimi qalmasına nəzərən deyə bilərik ki, mövzunu xarakterizə edən əsas xüsusiyyət interval tərkibi deyil, ilkin yuxarı sıçrayış və sonra onun daxilini müxtəlif intervallarla doldurmaqdadır (Nümunə 2).

**Nümunə 2**
**II Kvartet II hissə**




İntervalları (3,4,5) müəyyən yüksəklik əldə etməkçün pilləkən kimi istifadə istəyini biz III simfoniyanın (1981) başlanğıc mövzusunda da müşahidə edirik (Nümunə 3). Burada imzanın punktir xüsusiyyəti gözəgörünən olmasa da aşağıdan müəyyən yüksəkliyə həmlə edən mövzunu müəllif imzası kimi qavrayırıq. Vurğular və sinkopa ilə axsaq ritmika yaradılmışdı deyən mövzuların qohumluğu göz qabağındadır. Nümunə qismində nəzərdə keçirdiyimiz mövzuları birləşdirən daha bir xüsusiyyət də var: onların daxilində sanki bir kvarta özəyi var və mövzu bəzən gizli, bəzən açıq aydın şəkildə kvarta intervalının sanki başına dolanır.

**Nümunə 3**
**III simfoniya**



Həmin bu gizli kvarta intervalı “Dönübdü” (1977-82) *a cappella* xorunda tenorun partiyasında daha açıq-aydın və təkidlə səslənir. Aşıq Ələsgərin sözlərinə yazılmış *a cappella* xorun musiqi materialında kvarta intervalının nəzərəçarpacaq dərəcədə vurğulanması tamamilə təbiidir (Nümunə 4). Əslində C.Quliyevin müəllif imzasında yer almış kvartanın rolu da əribaşdan aydındır. Aşıq musiqisinin əsas intonasiya mahiyyətinin Azərbaycan bəstəkarlıq məktəbinin böyük nəslindən (bura Üzeyir bəy başda olmaqla Q.Qarayevi, F.Əmirovu, A.Əlizadəni və s. aşıq musiqisindən yararlanan digər bəstəkarları da aid edə bilərik) fərqli qaydada işlədilməsi də nəzərdən

qaçmamalıdır. İntervalların yüksələn xüsusiyyəti bəstəkarın erkən dövr yaradıcılığının əsas əlamətidir. “Dönübdü” xorundakı musiqi imzasında ritmik formul ikili nöqtə ilə daha kəskinləşdirilmiş və məqamın istinad səsləri yekunda toparlanıb şur kadansının təsdiqinə tabe edilmişdir. Şur kadansının mahiyyətində duran mayə və əsas ton arasındakı sekunda və üst kvartaya sıçrayış həmçinin müəllif imzasının da özəyində dayanmış əsas ideyadır.

**Nümunə 4**
**Dönübdü xoru**




Taxta nəfəs alətləri üçün kvartetin (1972-1989) III hissəsində imzanın yalnız sekunda və kvarta ardıcıllığına qədər sadələşməsi bu fikrin üzərində əminliklə dayanmağa əsas verir (Nümunə 5). Axsaq və punktir ritmika yerindədir, amma intervalların müxtəlif yüksəklikləri əldə etmək istəyi arxa plana keçib. Kvartetdə mövzunun məhz belə şəkildə qısaldılıb təkidlə təkrar edilməsi böyük dinamik qüvvə toplamağa imkan verir.

**Nümunə 5**
**Taxta nəfəs alətləri üçün kvartet III hissə**




Mövzunun hansı əsərdə, hansı əhvalda təfsir edilməsindən asılı olmayaraq döyüşkən xüsusiyyəti dərhal duyulur. Bu səbəbdən də onu döyüş səhnələrində daha tez aşkar etmək mümkündür. Nümunə qismində “Oğuznamə” baletindən (2006) döyüş səhnəsində peyda olan müəllif imzasına nəzər yetirək (Nümunə 6). Burada ritmik formul yerində olsa da kvartanın təsiri çox azdır. Çünki məqam dəyişmişdir və şüştərin bu parçada əmələ gəlməsinin sadə izahı var. Axı bu, hələ ki, türkün orta dünyasında[2] baş verən döyüş deyildi. Cavanşir Quliyevin şur məqamını insanın asudə, xoşbəxt həyatının leytməqamı kimi istifadə etməsini nəzərə alsaq əlbəttə ki, librettoya uyğun qurdlar və tanrıların savaşında şurun kadans əlamətlərini aramaq yersiz olardı.

**Nümunə 6**
**Oğuznamə Döyüş s.27**

[2] 3 səviyyəli Türk dünya modeli nəzərdə tutulur. Bu inama əsasən dünya üç səviyyəlidir. Yuxarıda tanrılar və xoşxassəli ruhlar yaşayır, aşağıda isə bədheybətlər, mənfi ruhların yeri və ölülər dünyasıdır. Orta səviyyənin sakinləri olan insanlar musiqi səsləri vasitəsilə bütün 3 səviyyəyə təsir etmək iqtidarındadır. Qədim təsəvvürlərə görə mərkəzdə duran dünya ağacı zaman və məkanı hərəkətə gətirir. İnsanı yaşadan orta dünya hər iki qatı dağılıb formadan düşməyə qoymur. Türkün inamına görə nə qədər ki, Dədə Qorqud qopuz çalır o yaşayır. Musiqi vasitəsilə formalaşan və əmələ gələn Kainatla bağlı dünya duyumu sırf türk təfəkkürüdür və müxtəlif təsirlər şəklində dünya mədəniyyətində izlənilməkdədir [8; 13].



Müəllif imzasının ritmik formulu səs yüksəkliyi olmadıqda belə öz funksiyasını layiqincə daşıya bilir. "Oğuznamə" baletində Qurban mərasimində zərb alətlərinin müntəzəm ritmik fonunda tersiya və kvarta addımlarının növbələşməsi toplam şəkildə kvarta+sekunda düzümü yaratdığından sazın Divani kökünü xatırladır [3]. Divanilərin döyüşkən musiqi olduğu, savaşdan əvvəl əsgərlərə ruh vermək üçün ifa edildiyi artıq məlumdur (Nümunə 7). Punktir ritmin aşağıya yönələn olması müəllif monoqramının hansı fikirləri çatdırmasına bir daha işıq salır. Əlbəttə, Qurban mərasimindəki musiqi imzası Uvertürada olduğu kimi parlaq sıçrayışları ilə valeh edə bilməzdi.

**Nümunə 7**
**"Oğuznamə" baleti, Qurban mərasimi**



"Oğuznamə" baletinin kulminasiya yerində, Oğuzun oğullarının torpaq uğrunda mübarizə etdiyi səhnədə əmələ gələn müəllif imzasını da izah etmək çətin deyil (Nümunə 8). Zurna tembri ilə xalq təntənəsi səhnəsində dürr kimi parıldayan mövzu sanki xalq musiqisinin məqam əsasını küll halında nümayiş etməyə cəhd edir. Züy tutan ikinci zurnanın gah H, gah C, gah da D səslərinə istinad verməsi xalqın sevimli rast-şur-segah növbələşməsini reallaşdırır. Bu zaman mövzunun şur xüsusiyyəti xalqın məqam sistemində əriyib ümumi əhvala rəng qatır.

**Nümunə 8**
**"Oğuznamə" baleti, Oğuzun oğullarının mübarizəsi**




Müəllif imzasının əsərlərdə peyda olma ardıcıllığını izləməyə çalışsaq qeyd etməliyik ki, "Oğuznamə" baletindən sonra imza daha az peyda olmağa başladı. Bunu C.Quliyevin yaşam mühitini dəyişməsi, yaxud son illərdə yaratdığı mövzu qalereyasının xüsusiyyətləri ilə də əlaqələndirmək olar. "Kızılırmak" baletində (2015) imzayabənzər mövzu yalnız baletin başlanğıcında "Çəmənlik" səhnəsində səslənir. Döyüşkən ruhundan məhrum olmuş mövzu sanki bir Vətən xatırlatması kimi görünür. Ritmik formulu qalsa da kvarta özəyini itirməyi ilə mövzu bəsitləşmiş və sadəcə təbiət idilliyasının təsvirinə tabe edilmişdir (Nümunə 9). Baletin daha bir başqa səhnəsində Səlim Zəhranın sevgisini rədd edəndən sonra Qaraqoyundan məsləhət istəyər-

kən müəllif imzasının deformasiya edilmiş versiyası düşünməyə vadar edir. Məhəbbət mövzusunun bunun üzərində qurulması sanki müəllifin "Ya sevgi, şəxsi xoşbəxtlik, ya da Vətən, xalq" dilemması arasında seçim etdiyinə işarədir. Yüksələn intonasiya enən olmuş, kvarta-kvinta sekstaya keçmiş, sekundalar artırılmış olmaqla sanki başayaq düşmüş mövzunun simasını yalnız punktir ritmindən tanımaq olur. Sanki Vətən və xalq bəstəkara güc verən əsas obraz statusunu itirməkdədir (Nümunə 10).

**Nümunə 9**

**"Kızılırmak" baleti** I səhnə Çayır




**Nümunə 10**

**"Kızılırmak" baleti.** Selim Zehra'yı reddeder ve Karakoyun'dan tavsiye ister.




Həmin bu fikrin təsdiqi olaraq "Müşfiq ağıları" oratoriyasında (2020), özü də Vətən ağısı bölümündə peyda olan müəllif imzasına nəzər salsaq yüksələn intonasiyalı mövzunun enən xüsusiyyətinə görə artıq fikir yürüdə bilərik (Nümunə 11). İntervallar (4, 3, 4, 2, 4, 2) yerində, ritmik formul təxminən bənzər olsa da tamam fərqli əhvaldır. Mövzuda bir nisgil var və müəllif imzasının özəyi olan yüksələn şur kadansı enən kvarta ilə əvəz edilib. Bu transformasiyanı oratoriyanın mövzusu (satqınların səyi nəticəsində öz şairinin dalında dayana bilməyən xalq və müvafiq olaraq Vətən obrazını yaratmaq istəyi) ilə, həmçinin C.Quliyevin şəxsi taleyi ilə də əlaqələndirmək olar.

**Nümunə 11**

**"Müşfiq ağıları" oratoriyası**




Türkiyə mühitində yaranmış 3 oratoriyadan yalnız birində, "Müşfiq ağıları"nda müəllif imzası bilavasitə C.Quliyevin yaşadığı Vətənin mövzusu ilə əlaqədar meydana çıxır. Bəlkə də bu səbəbdən osmanlı türkünün tarixinə dair əsərlərdə, "Necip Fazıl" (2016) və "Anzak Koyu Ağıtı" (2020) oratoriyalarında müəllif imzası yoxdu. Çox güman ki, bu bəstəkarın özünü osmanlı mühiti ilə identifikasiyası dərəcəsi ilə əlaqədardır. Bir qədər diqqətlə çalışsaq "Nacip Fazıl" oratoriyasında imzayabənzər mövzuya rast gələ bilərik. Allahın dərgahına aid "Nur" adlı bölümdə imzanın enən xüsusiyyətli, tanınmaz şəkli bəstəkarın həmin dövrdə olduğu ruhani durumu çox aydın təsvir edir (Nümunə 12). Ritmik formul və kvarta intervalı yerində olsa da şur

mayəsində (C) qısamüddətli dayanacaq və dərhal segah-zabulda ayaq vermə müəllifin xalq təntənəsini ötürmək istədiyi mövzular sırasına salmağına işarə edir.

**Nümunə 12**

**"Nacip Fazıl" oratoriyası,** II bölüm 7.Nur




Hazırda bəstəkar Osmanlı türkünün şanlı tarixi şəxsiyyəti olan Fateh Sultan Mehmedin adı ilə bağlı "Fateh" operası (2021) üzərində çalışır. Burada müəllif imzası əvvəlki əsərlərdəki funksiyada peyda olacaqmı, bəstəkar özünü İstanbulu fəth etmiş türk sərkərdəsinin dövrü ilə eyniləşdirmək istəyəcəkmi? – bunu yalnız zaman göstərəcək. Hazırda artıq formalaşmış leytmotivlər içində əsas qəhrəmanın mövzusunda C.Quliyevin musiqi imzasının konturları sezilir. İlk nəzərdən ritmik formulu ilə yadda qalan imzanın intonasiya təbiəti nəzərəçarpacaq dərəcədə dəyişdiyindən "*Ya Konstantiniyyəyi alacam, ya Konstantiniyyə benden can*" deyən Fateh Sultanın qarşısındakı taleyüklü dilemma bəstəkarın da bioqrafiyasındakı seçim əhvalını əks edir (Nümunə 13). Buradakı sekunda və kvartalar artırılmış, istiqamət enən olmuş və mövzu axsaq ritmindən məhrum edilmişdir. İlk dəfə zurna və simfonik orkestr üçün uvertürada sanki bərq vuran mövzu bu dəfə də kvinta diapazonu çərçivəsində cövlan edir. Amma 2 xanəlik özəyin əldə etdiyi x5 dərhal yuxarı sürüşərək art.4-da ayaq saxlayır. Bu özək ikinci nəfəsdə kvinta sərhədlərini bərpa etməyə çalışsa da yenə də hər hansı məqamın istinad pilləsində deyil art4-da qərarlaşır. Sanki zülmlə qazanılmış sonuncu yekun səs mövzunun itirdiyi şur əhvalını qaytarmaq iqtidarında deyil. Şüştər və hümayun məqamlarının müştərək səssırasına və istinad pərdələrinə (Hümayun Es-C) əsaslanması başayaq düşmüş müəllif imzasına tamam fərqli xüsusiyyət bəxş edir.

**Nümunə 13**

**"Fateh" operası,** Sultan Fatehin leytmotivi




C.Quliyevin müəllif monoqramında üçtonlu intervalın yaranması bir növ Bela Bartokun musiqi imzasına bənzəməyə başlayır. Əsərlərində BEBA monoqramı və onun müxtəlif şəkildəyişmələrini işlədən B.Bartok üçün inisiallarını mərkəzi element üçtonlu və sekunda intervalları üzərində quraşdırmaqla yanaşı leytton (B), leyttonallıq (B dur) və leytharmoniya da tətbiq etməsi əlamətdar xüsusiyyətdir [10].

C.Quliyev üçün üçtonlu interval deformasiya edilmiş kvarta deməkdir və müvafiq olaraq kvartaya uyğun emosiyaların da gözəllik etalonundan uzaqlaşmasını bildirir.

2023-cü ildə Hüseyn Cavidin "İblis" dramı əsasında yazılması nəzərdə tutulan baletin eskizləri sırasında ilk əvvəl İblisin leytmotivi yarandı. Bu mövzunun konturlarını bəstəkarın müəllif imzası ilə tutuşdurduqda biz yenə də bəstəkarın artıq qurulu intonasiya dünyasının başayaq çevrilməsini və birmənalı şəkildə mənfi şərh edilən obrazın yaradılmasında məna kərpicləri rolunu oynamasını müşahidə edirik. Mövzunun 3 nəfəslik (sanki bir nəfəs alacaq qədər parçalara bölünməsi şərti ilə) parça ilə həmlə edilməsi sanki bir təngnəfəslik yaradır. İlkin həmlədə axsaq ritmlə kvinta əldə edilir, amma bu diapazonun artırılmış sekunda ilə doldurulması yaxşı heç nə vəd vermir. İkinci həmlədə üstəlik əskildilmiş kvartanın peyda olması, bəstəkarın müəllif imzasında yüksələn sıçrayışla təqdim edilən sekstanın enən olması, bu ibarənin əskildilmiş kvinta intervalında qərarlaşması kvarta-kvinta və sekunda üzərində yaradılmış dünyanın süqutunu bildirir. Üçüncü həmlədə yüksələn dissonans intervala sıçrayış və yekun intonasiya kimi yaddaşlara sancılan art2 intervalı İblisin obrazına son ştrixləri əlavə edir. Bu mövzuda real insanlara məxsus şur məqamı da artıq yerini hümayuna vermişdir. Mövzunun hətta hümayun məqamı üçün xarakterik olmayan pərdəyə istinad verməsi, ***f*** və ***ff*** arasında dinamik gəzişmə Şuru Hümayuna çevirə bilən, oberton sırasının təmiz intervallarını bu qədər rahatlıqla dissonansa qatan iblisanə qüvvənin səs simvoluna çevrilir.

**Nümunə 14**.
"İblis" baleti (2023-), İblisin leytmotivi




Musiqi tarixinə öz intonasiyasını yaratmış bəstəkar kimi daxil olmaq hər müəllifin qismətinə yazılmır. C.Quliyev musiqisinin əsas özəlliyi ilk xanələrdən tanınan, rahatlıqla xatırlanan və uzun müddət yaddaqalan olmasındadır. Bu xüsusiyyəti əldə etmək üçün bəstəkar illər uzunu çalışmış və öz səslənən mühitini yarada bilmişdir. Müəllif imzasından danışarkən C.Quliyev ilk əvvəl axsaq ritmlə və sıçrayışla əldə edilən konsonans intervalı və daha sonra bu zirvədən də daha yüksəyə can atan ikinci həmləni, bu diapazonu aşıq musiqisinin əsasını təşkil edən sadə intervallarla dol-

durmağı təsvir edir (Nümunə 14). İllər uzunu bəstəkarın az qala bütün əsərlərində peyda olan bu musiqi monoqramının bəlkə də ən vacib cəhəti onun axsaq ritmikaya əsaslanmasıdır. Bu xüsusiyyət, yəni 7 və 9-luq ritmik formulaya sığışmaq qədim türk təsəvvürlərinə əsasən Kainatın mərkəzində duran və səs vasitəsilə hərəkətə gələn dünya ağacı boyunca enerji burulğanlarının yaranmasına təkan olur. Tarixçi, məşhur Amerika antropoloqu Mirça Eliade "Kosmos və tarix" kitabında şaman texnikasının və onların anlamında olan Dünya strukturunu detallı tədqiq edərək iddia edirdi ki, məhz şamanlar Yerdən Göyə, yaxud Yerdən torpağın altına keçid edən kosmik səviyyələrdən baş çıxarır və bu 3 mərtəbəni birləşdirən Dünya ağacı [1] vasitəsilə səyahət edə bilirlər. Bunu bəzən Dünya oxu, Dünya dağı, Dünya ağacı da adlandırırlar. Bu səviyyələri keçməkdə 7 və 9 rəqəmlərinin magiyası xüsusi rol oynayır [14, s.145]. Türk ritmikasında peyda olan 7 və 9 paylı axsaq ritmin yaranmasının mahiyyətində də məhz bu ilahi dünyagörüşünün təsirlərini olduğunu da ehtimal edə bilərik.

**Nümunə 15**

Cavanşir Quliyevin musiqi imzası özünün qrafik tərtibatında.




Musiqi tarixində müəllif imzası məsələsi kifayət qədər geniş yayılmış hadisədir [9; 11; 12; 15]. Əksər hallarda öz ad və soyadını əbəsiləşdirmək istəyilə (Məsələn, Bax, Şuman, Şostakoviç, Bela Bartok, Şönberq və b.) yaranan musiqi anaqramlarından [17] fərqli olaraq xalqın sevimli Divani kökünə uyğun sekunda-kvarta gedişli, axsaq ritmli formulu özünə müəllif imzası götürmüş C.Quliyevin niyyətində milliliyin və türkçülüyün miqyasını aydın görmək olur. Türkçülüyün milli musiqimizdə tədqiqi perspektivli tədqiqat istiqamətlərindən biri kimi [2; 4; 5] həmçinin bəstəkar musiqisində də uğurla tətbiq edilə bilər [7]. Müəllif imzasını tədqiq etmək istəyilə əlbəttə ki, hələ də yaratmaqda olan C.Quliyevdən mövzunun növbəti maraqlı transformasiyasını gözləmək niyyətindəyik.

## Ədəbiyyat siyahısı:

1. Hacılı, A. Dünya ağacı: Mifopoetik təfəkkür fəlsəfəsi. - Bakı: Mütərcim, - 2002. -164 s.

2. Hüseynova L.V. Musiqi türkologiyasının tədqiqat istiqamətləri və problemlərinə dair // "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri" XVI Beynəlxalq elmi-paktiki konfransın materialları. - Bakı, ADMİU, - 2017. - s. 26-29.
3. Kərimi, S., Quliyev, A., Quliyev, M. Saz məktəbi (Musiqi və incəsənət məktəblərinin saz ixtisası üzrə dərslik) - B.: Qarabağ, - 2007, - 230 s. http://saz.musigi-dunya.az/6.html
4. Xalıqzadə F. Musiqi türkologiyası: nailiyyətlər, perspektivlər // Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XV Beynəlxalq elmi-praktiki konfransın materialları. - Bakı, 2016. - s. 29-42.
5. Məmmədova R. Musiqi türkologiyasının əsasları. // "Musiqi dünyası", - 2022, 1 (90) - s. 22-27.
6. Асафьев, Б.В. Музыкальная форма как процесс: Книга вторая. Интонация / Асафьев Б.В. Избранные труды. Т. V. М.: Академия наук СССР, - 1971. - с.163-276.
7. Ахундова-Дадашзаде З.А. Проявление тюркской ментальности в творчестве азербайджанских композиторов. / «Истоки и эволюция литературы и музыки тюркских народов» Казань, 23-24 сентября 2014
8. Аязбекова, С.Ш. Картина мира этноса: Коркут-ата и философия музыки казахов: Монография. – Изд. 2-ое. - Астана, - 2011. - 284 с.
9. Ганзбург Г. Лейтмотив «Я» в музыке Баха, Шумана и Рахманинова // Ученые записки Российской академии музыки им. Гнесиных. — 2015. — № 1 (12) . — С. 42-50.
10. Драчёва Т.Г. Авторская монограмма в струнных квартетах Белы Бартока // Проблемы музыкальной науки. 2011–2(9). с.214–221.
11. Ингольд, Т. Родословная, поколение, субстанция, память, земля. Перевод С.В.Соколовского. // «Этнографическое обозрение», - 2008-4, - с.76-101
12. Муравьева С., Заднипряная Е. Принципы претворения темы-монограммы DSCH в музыкальных приношениях Д. Д. Шостаковичу // Музыкальное искусство № 13, Донецк, 2013. С. 103—109.
13. Утегалиева, С.И. Звуковой мир музыки тюркских народов (на материале инструментальных традиций Центральной Азии). Диссертация на соискание ученой степени доктора искусствоведения. - Москва – 2016, - 528 с.
14. Элиаде, М. Космос и история. - М.: Прогресс, - 1987. - 312 с.
15. Юферова О. А. Монограмма в музыкальном искусстве XVII—XX веков: дис. … канд. искусствоведения: 17.00.02 / Гос. акад. им. М. И. Глинки. Новосибирск, 2006. 239 с.

## Saytoqrafiya:

16. Bela Bartok. URL:https://az.wikipedia.org/wiki/Bela_Bartok
17. Музыкальная монограмма https://ru.wikipedia.org/wiki/Музыкальная_монограмма

**Гульнара Рафик кызы МАНАФОВА**
Старший научный сотрудник научной лаборатории «Реставрация и усовершенствование национальных инструментов» в АМК

## АВТОРСКАЯ МОНОГРАММА В МУЗЫКЕ ДЖАВАНШИРА КУЛИЕВА

***Резюме***: *Статья посвящена исследованию музыкальной подписи и авторской монограммы в творчестве известного азербайджанского композитора Джаваншира Гулиева, обнаруженного методом интонационного анализа. Авторская монограмма, обнаруженная начиная в произведениях раннего периода творчества, наблюдается в большинстве произведений композитора и рассматривается наряду с характерными особенностями, возникающими на фоне трансформации жизненного пути и личности автора. Авторская монограмма, основанная на пунктирном ритме, с доминирующей ролью интервалов кварты и секунды, лежащего в основе ашыгской музыки демонстрирует формы проявления тюркизма в современной музыке, где возвышение, стремление к высшим идеалам и нисхождение, материализация соответствует с идеями 3-уровневой модели древнетюркского мира.*

***Ключевые слова***: *Джаваншир Кулиев, музыкальная подпись, авторская монограмма, интонационный словарь*

**Gulnara Rafik MANAFOVA**
Senior researcher at the scientific laboratory
“Restoration and improvement of national instruments” at AMK

## AUTHOR'S MONOGRAM IN THE MUSIC OF JAVANSHIR GULIYEV

***Abstract:*** *The article is devoted to the study of the musical signature and author's monogram in the work of the famous Azerbaijani composer Javanshir Guliyev, discovered by the method of intonation analysis. The author's monogram, found in the works of the early period of creativity, is observed in most of the composer's works and is considered along with the characteristic features that arise against the backdrop of the transformation of the author's life path and personality. The author's monogram, based on a dotted rhythm, with the dominant role of intervals of fourth and second, underlying Ashyg music demonstrates the forms of manifestation of Turkism in modern music, where elevation, striving for higher ideals and descent, materialization corresponds to the ideas of the 3-level model of the ancient Turkic world.*

***Keywords:*** *Javanshir Guliyev, musical signature, author's monogram, intonation dictionary*

**Məqalənin redaksiyaya daxil olma tarixi:**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Lalə Hüseynova**